## YENİ UNİVERSAL NƏZƏRİYYƏ

AZAD NƏBİYEV
BDU, professor

# FOLKLOR YARADICILIĞINDA FASİLƏSİZ TRANSFER

Məlumdur ki, XIX yüzillik tarixə texniki tərəqqinin yüksəlişinə təkan verən kəşflərlə daxil oldu. Yeni qanunlar kəşf edildi, insan əməyini yüngülləşdirən səmərəli texniki avadanlıqlar ixtira olundu, əmək məhsuldarlığının yüksəlməsinə gətirib çıxaran nailiyyətlər biri-birini əvəz elədi. Bu texniki tərəqqi ilə yanaşı, ictimai fikir tarixində, fəlsəfədə də təbiət və cəmiyyət hadisələrinə yeni baxışlar gündəmə gəldi. Dövrün ictimai fikri və fəlsəfəsində cəmiyyət həyatında baş verən bütün dəyişikliklərə yeni münasibətlər formalaşmağa başladı. İctimai fikirdə yaranan ən mühüm dəyişikliklər insan fenomeni ilə bağlı oldu. Fəlsəfi düşüncədə belə mühüm tezis irəli sürüldü ki, insanı təkcə bioloji varlıq kimi yox, həm də psixoloji varlıq kimi öyrənmək vacibdir. «Lakin köhnə şüur formasından yeni şüur formasına – köhnə epoxadan yeni epoxaya keçid keşməkeşli, ağrılı olur. Bu da hər şeydən əvvəl özünü insan taleyində göstərir. XX əsrədək elm və fəlsəfə öz nəzərlərini təbiətə istiqamətləndirdiyindən insan unudulmuşdu. Böyük humanist A.Şveytser deyirdi ki, «Fəlakət zamanı bizim üzərimizdə keşik çəkməli olan keşikçi gözlərini yummuşdu». O, fəlsəfənin insana münasibətini nəzərdə tuturdu. Buna oxşar bir mülahizə E.Hisseri tərəfindən söyləNilmişdir. O, yazırdı ki, total ekzistensional böhran zamanı fəlsəfə – «yuxuya dalmışdır». Bu hər şeydən əvvəl ruhunun insanın və insanlığın böhranı idi» (1,s.5). Bu böhran fəlsəfi fikirdə aydın dərk edilən və başa düşülən idi. Bir çox filosoflar cəmiyyətdə insan fenomeninin açılmasını onun psixoloji obyekt və varlıq kimi öy-

rənilməməsində görürdülər. K.Q.Yunq yazırdı ki, dünya böyük fəlakət qarşısındadır, onun mizan-tərəzisi pozulmuşdur. O, incə bir tel üzərində dayanmışdır. Artıq qırılmaq üzrə olan bu tel psixikadır. Psixika ən ulu gerçəklikdir. Bu gerçəklik isə artıq sarsılmışdır (2,bax s.281-282). Fəlsəfi fikir tarixində insan amilinin psixoloji qütblərdən öyrənilməsi nə qədər önə çəkilsə də o, cəmiyyət həyatında hələ əsaslı şəkildə gündəmə gələ bilmədi. Ancaq XIX yüzillikdə Avropanı nicata aparan psixoloji yanaşma heç də nəticəsiz qalmadı. İctimai fikir tarixində insanı təbiətin yetirməsi kimi öyrənən elmlər – antropologiya, teologiya, etnologiya fəlsəfə ilə çarpazlaşaraq onun psixoloji dəyərlərlə bağlılığını elmi fikrin tədqiqat mərkəzinə gətirdi. Almaniyada Qrimm qardaşları öz müasirlərindən xeyli irəli getdi. Onlar germanşünaslığı yaradarkən mifoloji materiallara üstünlük verərək göstərdilər ki, insanın dünyanın dərki prosesində yaratdığı xalq poeziyası nümunələri eləcə də miflər sonrakı nəsillərə yarandığı şəkildə gəlib çatmamışdır. Bu yaradıcılıqdakı psixoloji dəyərlər əslində sonrakı dövrlərə əsaslı şəkildə ötürülmüşdür. Bu prosesdə fərd – kollektiv yaradıcılığı hansısa rola malikdirmi məsələsində Yakob Qrimm müasirləri Qerderin, Brektononun, Çerresin və Arninin ideyalarını davam etdirərək onlara belə bir mülahizə əlavə etdi ki, xalq poeziyası ayrı-ayrı fərdlərin yaradıcılığıdır. O, xalq poeziyasını süni və təbii poeziya kimi iki qrupa ayırdı. Birincinin elm adamları tərəfindən yarandığını, ikincinin isə savadı olmayan kütlə, şairlər tərəfindən meydana çıxdığı qənaətinə gəldi. Fərdlər kollektivi tərəfindən yaranan bü nümunələrin psixoloji dəyərini isə onların poetik yaradıcılıq səviyyəsi ilə müəyyənləşdirməyi təklif etdi (4,s.117).

Bu mülahizədən çox keçmədən psixoloji dərketmənin ilahi mənşə ilə bağlılığı mülahizəsi irəli sürüldü. Onlar xalq poeziyasının ritmik xüsusiyyətlərinin, xüsusilə alliterasiya, ritm, ahəng,

vurğu və sair poetik dəyərlərin fövqəlbəşər təbiətli olduğunu göstərdilər. Qrimm qardaşları öz nəzəri fikirlərində xalq poeziyasının psixoloji tədqiqinin tərəfdarları olsalar da, öz yanaşmAlarında hələ bu tədqiqat metodundan çox uzaq idilər (5,s.83).

Fərd – kollektiv yaradıcılıq prosesi XIX əsrdə etnoloq və antropoloqların nəzəri fikrini nə qədər məşğul etsə də problemin açılışına yaxınlaşan E.Teylor, Endru Lanqın bu sahədə müəyyən dəyərli mülahizələri gündəmə gətirilsə də, nə onlar, nə də sonrakı dövrün Avropa nəzəriyyəçiləri folklor yaradıcılığında fərd-kollektiv labirintindən çıxa bilmədilər (3,s.256).

Ancaq bu dövrdə psixoloji məqamın öyrənilməsini vacib hesab edən bir çox psixoanaliz tərəfdarları, o cümlədən alman etnoloqları Laçarus və Şteyntel qəti şəkildə bildirirdilər ki, fərdin cəmiyyət həyatındakı geniş və çoxcəhətli fəaliyyətini dəyərləndirmədən onun kollektiv iştirakçısı olmasına hökm vermək mümkün deyildir (3,s.287). Təbii ki, kollektiv ifada iştirak edən fərdlərin özünəməxsus yaradıcılıq ənənəsi, improvizatorçuluq məharəti olmalı idi. Etnoloq Ben Çenen isə fərdin yaradıcılıq funksiyasını folklorda deyil, etnoqrafiyada axtarmağın vacib olduğunu bildirirdi. Bununla da əslində folklorda fərd-kollektiv yaradıcılığını qəbuledilməz hesab edirdi. XIX yüzillikdə bir-birini təkzib edən belə mülahizələr əslində psixoloji tədqiqat metodunun gündəmə gəlməsini sürətləndirdi.

Nəzəri fikirdə fərd – kollektiv yaradıcılıq prosesinin XX və XXI yüzilliklərə ötürülməsi, ictimai fikirdə onun dondurulmuş şəkildə qalması təbii ki, bu yaradıcılıq prosesində psixoloji amilin öyrənilməsinin ləngidilməsinin acı nəticəsi idi. Bu həm də bədii düşüncənin qiymətləndirilməsində, insanın yetkin psixoloji varlıq kimi açıqlanmasında ləngimələrə səbəb olmuşdu. Nəticədə isə dünyada baş verən qlobal böhranların, cəmiyyətləri fəlakətə aparan regional və məhəlli idarəçiliyin, bütövlükdə isə qə-

bahətlərin və fəzilətlərin dəyərləndirilmə imkanlarının itirilməsinə gətirib çıxarmışdır.

XX yüzilliyin ilk onilliklərindən başlayaraq "buzu" sındıran isə Ziqmund Freyd oldu. Psixoanalizin əsasını qoyan Z.Freyd qeyri-şüuri kəşf etdi və bütün müşahidə və tədqiqatlarını onun üzərində qurdu. «Adi həyatın psixoantologiyası», «Psixoanalizə giriş», «Totem və tabu», «Mənəviyyatdan narazılıq», «Seksuallığa dair oçerklər», «Yuxuyozma» və başqa əsərlərində bu ideyanı inkişaf etdirərək təkmilləşdirmiş, insan və ruh haqqında özünün qüdrətli təlimini yaratmışdır (6,s.415-416). Bu nəzəri yanaşmanın çoxsaylı tərəfdarları olduğu kimi, əleyhdarları da saysız-hesabsız idi (7,M.,1978,238 s.).

Ancaq insanın psixoloji dərketməsi və insan ruhu haqqında yaranan nəzəriyyənin ictimai fikir və müasir dövr fəlsəfi düşüncə tarixində dünya xalqlarının mədəni dəyərləri kontekstində, folklor yaradıcılığı materialları əsasında ikinci mühüm tərəfinin təhlilinə isə məhz XXI əsrin ilk onilliyində Azərbaycanda başlanmışdır. Buna son onillikdə folklor yaradıcılığında genealoji nəzəriyyənin açıqlanması sahəsində aparılan müşahidələr, eksperimentlər və əldə edilən nəticələr imkan vermişdir (6,s.3-5).

Oxşar dəyərlərin gen birliyi ilə bağlılığını təsdiqləyən yeni nəzəri baxış qloballaşma mərhələsində ictimai və fəlsəfi fikir qarşısında yeni oriyentasiyaların açıqlanmasına ünvanlanmışdır. Bu problemin tədiqində uzun zaman ərzində dünya elmi-nəzəri fikrini məşğul edən gen qaynağı, gen yaddaşı, gen kodu və onların formalaşmasında əsaslı rol oynayan insan zəkası önə çəkilir (6,s.5-97). Nəzəriyyədə oxşar dəyərlərin münbit zəmini olan folklor yaradıcılığının süjetyaratma və süjetötürmə funksiyalarına malik gen yaddaşı və gen kodunun fasiləsiz ötürücülük funksiyası açıqlanır. Həmin müşahidə və eksperimentlər isə az sonra fərd-kollektiv prosesindən çox-çox əvvəl psixoloji dəyərlərə

söykənən insan tərəfindən silsilə folklor yaradıcılığı vahidlərinin fəaliyyətdə olduğunu təsdiqləyir. Yeni yaranan bu silsilənin sırası genişdir. Bunlar ibtidai insanın dünyanı dərki prosesindəki ilkin səs və söz komplekslərini yetkin baxışlarını, inanclarını, etiqadlarını, sınaqlarını, eləcə də onların nəticələrini əhatə edən yuxu, ürəyədamma, gözəgörünmə, göstərmə, röya, mif və digər kiçik janr paradiqmaları, ibtidai paremik vahidlərdir. Aparılan eksperimentlər təsdiq edir ki, əski etnopsixoloji düşüncə nümunəsi olan bütün bu paremik vahidlər kollektiv ifaya verilməzdən əvvəl ictimai fikirdə müxtəlif psixoloji məqamlarla bağlı insanın dünyanı dərki prosesində yaranmış və eyni kökdən – gen qaynağından dünya xalqlarının folklor yaradıcılığına transfer edilmişdir. Bütün bu bədii nümunələr insanın dünyagörüşündə, dünya modelini formalaşdırdığı mərhələdə müşahidə etdiyi, dönə-dönə sınaqdan keçirdiyi qənaətlərinin sözə, deyimə və folklor vahidinə çevrilərək etnik yaddaşdan insanın gen yaddaşına süzülən bədii düşüncənin fövqəlbəşər səciyyəli fasiləsiz transferinin nəticəsidir. Bu prosesin idarə olunması isə insanın görmə, eşitmə, iybilmə, dadbilmə və hissetmə duyğuları və psixoloji-bioloji fəaliyyət sistemləri ilə eyni mənşəlidir. Psixoloji dərketmə sayəsində meydana çıxan fasiləsiz transfer folklor yaradıcılığının bütün sonrakı inkişaf və yüksəlişində canlı yaradıcılıq prosesi kimi daimi fəaliyyətdə olmuşdur.

Əgər psixoloji dərketməni $P_d$ ilə, fasiləsiz transferi $F_t$ ilə, gen yaddaşı toplumu ötürücüsünü $G_n$-lə işarə etsək fasiləsiz transferin aşağıdakı riyazi düsturunu ala bilərik:

$$F_t = P_d \times G_n$$

Folklor yaradıcılığında fasiləsiz transferin süjet yaradıcılığı amplitudası isə sonsuzluğa doğru yüksələn xətt üzrə inkişafdadır. Onu riyazi şəkildə belə ifadə etmək olar:

$$F_t + P_d \times G_n = \infty$$

Sonsuzluq hüdudu və ölçülərini isə Lütfü-Zadə riyazi metodu əsasında müəyyənləşdirmək mümkündür (7, s. 7-34).

Folklor yaradıcılığında fasiləsiz transfer sivilizasiya dəyərləri sırasında forma və məzmunca oxşar silsilə etnopsixoloji vahidlər yaratdığı kimi, ictimai və fəlsəfi fikirdə psixoloji dərketməyə söykənən və sonsuzluğa yüksələn bədii düşüncə qəlibləri də formalaşdırmışdır. Onların açıqlanması isə təbii ki, yeni dəyərləndirmə meyarları tələb edir.

Bir daha xatırlatmaq gərəkdir ki, folklor yaradıcılığında fərd – kollektiv prosesi folklor irsinin mövzu-məzmun və sənətkarlıq baxımından cilalanma mərhələsi kmi fasiləsiz transferdən çox-çox sonrakı dövrlərdə baş verən folklor hadisəsidir. Onun dövrü sistemi, təbiəti və riyazi modeli barədə əvvəlki tədqiqatlarımızda ətraflı məlumat vermişdik (10, s. 19-21).

## ƏDƏBİYYAT

1. Fərman İsmayılov. Klassik psixoanalizin əsasları. Bakı, 2003, 348 s.

2. К.Г.Юнг. Аналитическая психология. М., 1991, 203 с.

3. Дж.Коккьяра. История фолклористики в Европе. М., 1960.

4. Якоб Гримм. Немецкая мифология (на немецком языке). Берлин, 1835, 285 с.; (на русском языке). М., 1935, 297 с.

5. В.Гримм. Древний датский героический эпос. М., 1972, 344 с.

6. З.Фрейд. Психология бессознательного. М., 1989, с. 407-415-416; Введение в психоанализ. М., 1989, с.357

7. К.Б.Клеман и др. Марксистская критика психоанализа. М., 1978, 283 с.

8. Azad Nəbiyev. Oxşar dəyərlərin gen qaynağı – Genealoji nəzəriyyə. Bakı: Elm-Təhsil, 2009, 97 s.

9. Л.Заде. Понятие лингвистической переменной и ее применение к принятию приближенных решений. Пер. с англ. Н.И.Ринго. / Под редакцией Н.Н.Моисеева и С.А. Орловского. Москва, 1976.

**10.** Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı: 2 cilddə, I c. Bakı, 2009, 640 s.

## XÜLASƏ

Məqalədə göstərilir ki, «Folklor yaradıcılığında fasiləsiz transfer» dünya xalqlarının şifahi yaradıcılığının başlanğıc mərhələsində psixoloji dərketmə ilə bağlı meydana gələn qüdrətli prosesdir. Aparılan müşahidələr və eksperimentlər təsdiq etmişdir ki, psixoloji dəyərlərə söykənən ulu əcdad dünyanın dərki prosesində silsilə paradiqmalar və paremik vahidlər yaratmış və insanın gen yaddaşında toplanan həmin psixoloji dəyər vahidləri dünya xalqlarının folklor dünyasına mərhələ-mərhələ səpələnmişdir. Fərd-kollektiv yaradıcılığından çox-çox əvvəllər fəaliyyətdə olan fasiləsiz transfer ictimai düşüncənin və fəlsəfi fikrin yüksəlişində mühüm inkişaf mərhələsi olduğu kimi, folkloru zənginləşdirən ən ilkin yaradıcılıq prosesi kimi dəyərləndirilməlidir.

## A.NƏBİYEVİN ŞƏXSİ ARXİVİNDƏN

*Görkəmli Azərbaycan folklorşünası mərhum professor M.H.Təhmasib A.Nəbiyevin namizədlik dissertasiya işinin elmi rəhbəri olmuşdur. Sonradan ona doktorluq mövzusunun seçilməsində və mövzunun işlənməsində də öz dəyərli məsləhətlərini əsirgəməmişdir. A.Nəbiyevin doktorluq dissertasiyasının avtoreferatı nəşr edildikdən sonra M.H.Təhmasib xəstə olmasına baxmayaraq ona maraqlı bir rəy vermişdir. Həmin rəyin professorun son rəylərindən biri olduğunu nəzərə alaraq jurnalımızın oxucularına təqdim edirik.*

***Redaksiya heyəti***

## FİLOLOGİYA ELMLƏRİ NAMİZƏDİ A.M.NƏBİYEVİN «ТИПОЛОГИЯ И ВЗАИМОСВЯЗИ АЗЕРБАЙДЖАНСКОГО И УЗБЕКСКОГО ФОЛЬКЛОРА» MÖVZUSUNDA YAZDIĞI DOKTORLUQ DİSSERTASİYASINA

## RƏY

Azərbaycan folklorşünaslığı qarşısında duran mühüm məsələlərdən biri də şifahi yaradıcılığımızın yaranması prosesində onun tarixən eyni etnik qrupa daxil olan tayfaların, qardaş və qonşu xalqların yaradıcılığı ilə qarşılıqlı əlaqə və təsirini öyrənməkdədir. Ayrı-ayrı xalqların şifahi yaradıcılığında bir sıra motiv və süjetlər, bədii forma üslub və yaradacılıq ənənələri və s. arasındakı oxşarlıqlar çoxdan bəri tədqiqatçıları düşündürmüşdür. Bir sıra digər xalqların şifahi yaradıcılığında olduğu kimi, türk xalqları qrupuna daxil olan azərbaycanlıların və özbəklərin folklorunda da belə oxaşrlıqlara tez-tez təsadüf edilir. Bu barədə A.Veselovski, V.A.Qordlevski, V.M.Jirmunski, X.T.Zərifov və

başqaları yeri gəldikcə bəhs etmişlər. Adları çəkilən alimlərin əsərlərində toxunulan məsələlərdən aydın görünür ki, hər iki xalqın folklorunda tipoloji yaxınlığın və qarşılıqlı əlaqələrin müqayisəli şəkildə, müstəqil tədqiqat obyekti kimi araşdırmağa ciddi ehtiyac vardır. Filologiya elmləri namizədi A.Nəbiyevin müdafiəyə təqdim etdiyi «Типология и взаимосвязи азербайджанского и узбекского фольклора» adlı doktorluq işi məhz belə bir zərurətlə bağlı meydana gəlmişdir.

Mövzu aktualdır. Tədqiqat işində iki qardaş xalqın şifahi yaradıcılığındakı genetik, tipoloji, tarixi əlaqələr araşdırılmış, qarşılıqlı təsir və zənginləşmə prosesinin bu xalqların şifahi yaradıcılığındakı rolu tədqiq edilmişdir. Məlumdur ki, bu gün yeni sovet adamının formalaşdığı bir dövrdə müəyyən tarixi birlik prosesində qəbilə, tayfa halında yaşayan ulu babalarımızın həyat və məişətindəki ümumilik, onların qarşılıqlı əlaqələri müasir şəraitdə ölkəmizdə xalqların və millətlərin sarsılmaz dostluğun şərtləndirən mühüm amillərdəndir.

Dissertasiyada tədqiq edilən məsələlər yenidir, ilk dəfə küll halında sistem şəkildə araşdırılan problemlərdir.

Dissertasiya giriş, üç fəsil, nəticə və kitabiyyatdan ibarətdir.

«Giriş»də mövzunun aktuallığı, işin praktiki əhəmiyyəti, tədqiqatın zəruriliyi əsaslandırılmışdır.

Birinci fəsildə «Azərbaycan və özbək folklor əlaqələrinin yaranması, inkişafı məsələləri araşdırılmışdır. Etiraf etmək lazımdır ki, dissertant çox ağır, çətin bir problemin həllinə girişmişdir. Burada tarixi, etnoqrafik, antropoloji, mifoloji tədqiqatlardan istifadə edilmiş, dissertantın hərtərəfli biliyi, ümumi elmi-nəzəri səviyyəsi üzə çıxmışdır. Qoyulan məqsədə dissertant nail olmuş, folklorşünaslığımız üçün az əhəmiyyəti olmayan bir sıra məsələləri aydınlaşdırmağa müvəffəq olmuşdur.

Dissertasyianın ikinci fəslində Azərbaycan-özbək folklorunu demək olar ki, əksər janrları müqayisəli tipoloji aspektdə araşdırılmışdır. Bu çox zəhmət, geniş erudisiya, dərin elmi-nəzəri hazırlıq tələb edən problemi dissertant müasir tələblərə uyğun şəkildə həll etmişdir.

Dissertasiyada iki xalqın tipoloji yaxınlığı və qarşılıqlı əlaqələri üçüncü fəsildə «Koroğlu» və «Goroğlu» dastanları üzrə araşdırılmışdır. Göründüyü kimi, dissertasiyada tədqiq edilən problemlər mürəkkəb olduğu kimi, aktual və yenidir.

Müdafiəyə təqdim edilən dissertasiya türkdilli xalqların tipoloji yaxınlığını və qarşılıqlı əlaqələrini folklor materialları əsasında öyrənən ilk samballı tədqiqatlardan biridir.

İşin mühüm praktik əhəmiyyəti vardır. Dissertasiya Azərbaycan və özbək folkloru tarixini öyrənmək baxımından əhəmiyyəti olduğu kimi, bu iki xalqın qədim dövr mədəni əlaqələrini araşdırmaq cəhətdən də faydalıdır. Mövzu ilə bağlı dissertantın çap etdirdiyi monoqrafiyalar ali məktəblərdə qiymətli dərs vəsaiti kimi istifadə edilir. Dissertasiya eyni zamanda Azərbaycan və özbək xalqlarının tarixi əlaqələrini saxtalaşdıran burjua tədqiqatçılarına yaxşı cavabdır.

Avtoreferat, dissertantın nəşr etdirdiyi monoqrafiyalar və məqalələr dissertasiyanın əsas məzmununu əhatə edir.

A.Nəbiyevin «Типология и взаимосвязи азербайджанского и узбекского фольклора» mövzusunda yazdığı doktorluq dissertasiyası müasir tələblərə cavab verən, yüksək elmi-nəzəri səpgidə yazılmış tədqiqat işidir.

Dissertasiyanın müəllifi A.M.Nəbiyev filologiya elmləri doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

**M.H.TƏHMASİB**
***Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat İnstitutu folklor şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor***

***15 mart 1981***